# Təhsil Problemləri İnstitutunun 2015-ci il nəşrləri

**2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasından və “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərmiş, 3 monoqrafiya, 25 dərslik və dərs vəsaiti, 6 tədris proqramı, 10 metodik vəsait və 154 jurnal məqaləsi ilə müəllimlərin maariflənməsi və inkişafına dəstək vermişdir. Həmin nəşrlərin 18-i haqqında qəzetimizin ötən saylarında oxuculara məlumat vermişik. Daha 10 nəşri təqdim edirik.**



**“Ümumtəhsil məktəbləri üçün yeni təhsil proqramları (kurikulumları) üzrə təlim materiallarının təxmini planlaşdırılması (VIII sinif)”. Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 39 səh.**

*Tərtibçilər: İlham Cavadov, Bibixanım İbadova.*
*Elmi redaktor: Ənvər Abbasov.*

Ümumtəhsil məktəbləri üçün yeni təhsil proqramları (kurikulumları) üzrə təlim materiallarının təxmini planlaşdırılması (VIII sinif) riyaziyyat, informatika, biologiya, fizika, kimya, həyat bilgisi fənləri üzrə hazırlanmışdır. Planlaşdırma nümunəsi hazırlanarkən səkkizinci siniflərə aid məzmun standartları, yeni təlim strategiyaları əsas götürülmüş, mövcud dərsliklər nəzərə alınmış, qabaqcıl müəllimlərin təcrübəsinə istinad olunmuşdur. Planlaşdırma nümunələri istiqamətverici xarakterə malik olub VIII sinifdə müvafiq fənləri tədris edən müəllimlər üçün nəzərdə tutulmuşdur. Ondan təcrübə keçən tələbə və magistrlər, ixtisasartırma kurslarının müdavimləri də istifadə edə bilər.



**“Ümumtəhsil məktəbləri üçün yeni təhsil proqramları (kurikulumları) üzrə təlim materiallarının təxmini planlaşdırılması (VIII sinif)”. Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 30 səh.**

*Tərtibçilər: İlham Cavadov, Bibixanım İbadova.*
*Elmi redaktor: Ənvər Abbasov.*

Ümumtəhsil məktəbləri üçün yeni təhsil proqramları (kurikulumları) üzrə təlim materiallarının təxmini planlaşdırılması (VIII sinif) texnologiya, fiziki tərbiyə, musiqi, təsviri incəsənət fənləri üzrə hazırlanmışdır. Planlaşdırma nümunəsi hazırlanarkən səkkizinci siniflərə aid məzmun standartları, yeni təlim strategiyaları əsas götürülmüş, mövcud dərsliklər nəzərə alınmış, qabaqcıl müəllimlərin təcrübəsinə istinad olunmuşdur. Planlaşdırma nümunələri istiqamətverici xarakterə malik olub VIII sinifdə müvafiq fənləri tədris edən müəllimlər üçün nəzərdə tutulmuşdur. Ondan təcrübə keçən tələbə və magistrlər, ixtisasartırma kurslarının müdavimləri də istifadə edə bilər.



**“Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər)”. Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 30 səh.**

*Nəşrə hazırlayanlar: Ənvər Abbasov, İlham Cavadov.*
*Elmi redaktor: Nizami Cəfərov.*

Proqram “Ümumi təhsil pilləsinin dövlət standartları və proqramı (kurikulumu)” sənədinə əsasən hazırlanmış və fəlsəfəsi açıqlanmış, rol və əhəmiyyəti, məqsəd və vəzifələri şərh olunmuşdur. Bu proqram giriş, Azərbaycan dili təliminin məzmunu, təlim strategiyaları, şagird nailiyyətlərinin qiymətləndirilməsi, tezaurus və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

“Azərbaycan dili təliminin məzmunu” hissəsində bu fənn üzrə standartlar, onların şaquli və üfiqi inteqrasiyasını ifadə edən cədvəllər, “Təlim strategiyası” bölməsində isə Azərbaycan dili təliminin təşkili prinsipləri, forma və üsulları, planlaşdırma nümunələri və məzmun standartlarının şərhi öz əksini tapmışdır.

“Şagird nailiyyətlərinin qiymətləndirilməsi” bölməsində isə siniflər üzrə qiymətləndirməyə dair tövsiyələr, qiymətləndirmə standartları və qiymətləndirmə vasitələrinə dair nümunələr verilmişdir.

Kitab ümumtəhsil məktəbinin Azərbaycan dili və ədəbiyyat müəllimləri, rəhbərləri üçün nəzərdə tutulmuşdur.

Kitabdan həmçinin təhsil mütəxəssisləri, filologiya fakültəsinin tələbələri, bu sahə üzrə tədqiqatçılar da istifadə edə bilər.



**“Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ikinci xarici dil fənn kurikulumunun tətbiqinə dair tövsiyələr. Fransız dili (5-7-ci siniflər)”. Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 68 səh.**

*Müəlliflər: İlham Cavadov, Bibixanım İbadova, Gülbəniz Camalova, Aynurə Mahmudova, Sevda İbrahimova, Çinarə Həsənova.*
*Elmi redaktor: Ənvər Abbasov.*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi əsasında hazırlanmış vəsaitdə ikinci xarici dil (V-VII siniflər) fənni üzrə məzmun standartları, fransız dilinə aid illik, gündəlik planlaşdırma və qiymətləndirmənin aparılması ilə bağlı nümunələr, eyni zamanda, həmin materiallarla işin təşkilinə dair istiqamətverici tövsiyələr verilmişdir. Metodik tövsiyə hazırlanarkən ikinci xarici dil fənni üzrə təhsil proqramının (kurikulumun) tələbləri əsas götürülmüşdür. Metodik tövsiyə Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri, onun pedaqoji heyəti üçün nəzərdə tutulmuşdur. Ondan təhsil menecerləri və mütəxəssisləri, elmi işçilər və tələbələr də istifadə edə bilərlər.



**“Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ikinci xarici dil fənn kurikulumunun tətbiqinə dair tövsiyələr. Alman dili (5-7-ci siniflər)”. Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 68 səh.**

*Müəlliflər: İlham Cavadov, Bibixanım İbadova, Raya Həsənova, İlhamə Məmmədova.*
*Elmi redaktor: Ənvər Abbasov.*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi əsasında hazırlanmış vəsaitdə ikinci xarici dil (V-VII siniflər) fənni üzrə məzmun standartları, alman dilinə aid illik, gündəlik planlaşdırma və qiymətləndirmənin aparılması ilə bağlı nümunələr, eyni zamanda, həmin materiallarla işin təşkilinə dair istiqamətverici tövsiyələr verilmişdir. Metodik tövsiyə hazırlanarkən ikinci xarici dil fənni üzrə təhsil proqramının (kurikulumun) tələbləri əsas götürülmüşdür. Metodik tövsiyə Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri, onun pedaqoji heyəti üçün nəzərdə tutulmuşdur. Ondan təhsil menecerləri və mütəxəssisləri, elmi işçilər və tələbələr də istifadə edə bilərlər.



**“Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ikinci xarici dil fənn kurikulumunun tətbiqinə dair tövsiyələr. İngilis dili (5-7-ci siniflər)”. Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 88 səh.**

*Müəlliflər: İlham Cavadov, Bibixanım İbadova, Fəridə Hüseynova, Şəhla Kərimova, Hüzurə Ağayeva, Rəsmiyyə Bədirova.*
*Elmi redaktor: Ənvər Abbasov.*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi əsasında hazırlanmış vəsaitdə ikinci xarici dil (V-VII siniflər) fənni üzrə məzmun standartları, ingilis dilinə aid illik, gündəlik planlaşdırma və qiymətləndirmənin aparılması ilə bağlı nümunələr, eyni zamanda, həmin materiallarla işin təşkilinə dair istiqamətverici tövsiyələr verilmişdir. Metodik tövsiyə hazırlanarkən ikinci xarici dil fənni üzrə təhsil proqramının (kurikulum) tələbləri əsas götürülmüşdür. Metodik tövsiyə Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri, onun pedaqoji heyəti üçün nəzərdə tutulmuşdur. Ondan təhsil menecerləri və mütəxəssisləri, elmi işçilər və tələbələr də istifadə edə bilər.



**“Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ikinci xarici dil fənn kurikulumunun tətbiqinə dair tövsiyələr. Rus dili (5-7-ci siniflər)”. Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 76 səh.**

*Müəlliflər: İlham Cavadov, Bibixanım İbadova, Aidə Qasımova, İnarə Cəfərova, Dilbər Məmmədova, Elnurə Əliyeva.*
*Elmi redaktor: Ənvər Abbasov*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi əsasında hazırlanmış vəsaitdə ikinci xarici dil (V-VII siniflər) fənni üzrə məzmun standartları, rus dilinə aid illik, gündəlik planlaşdırma və qiymətləndirmənin aparılması ilə bağlı nümunələr, eyni zamanda, həmin materiallarla işin təşkilinə dair istiqamətverici tövsiyələr verilmişdir. Metodik tövsiyə hazırlanarkən ikinci xarici dil fənni üzrə təhsil proqramının (kurikulumun) tələbləri əsas götürülmüşdür. Metodik tövsiyə Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri, onun pedaqoji heyəti üçün nəzərdə tutulmuşdur. Ondan təhsil menecerləri və mütəxəssisləri, elmi işçilər və tələbələr də istifadə edə bilər.



**“Azərbaycan təhsilində strateji hədəflər və pedaqoji elmlərin qarşısında duran vəzifələr” mövzusunda Respublika Elmi Konfransının materialları (Bakı şəhəri, 16 dekabr 2015-ci il). Bakı, Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 234 səh.**

“Azərbaycan təhsilində strateji hədəflər və pedaqoji elmlərin qarşısında duran vəzifələr” mövzusunda Respublika Elmi Konfransında çıxış etmək üçün təqdim olunmuş məruzələrin əsasında hazırlanmışdır. Təqdim olunmuş 120-yə qədər məruzə “Şəxsiyyətyönümlü təhsil: şəxsiyyətin formalaşdırılmasının aktual problemləri”, “Təhsildə innovativ təlim metodları və texnologiyalarının tətbiqi”, “Pedaqoji kadr hazırlığı”, “Səmərəli təhsil modelinə əsaslanan standart və kurikulumların hazırlanması”, “Təhsilin idarə olunmasının aktual problemləri”, “Psixologiya və korreksiya pedaqogikası”, “Metodika: fənlərin tədrisi metodikası” bölmələri üzrə qruplaşdırılmışdır.

Konfransın materiallarında təhsilin bütün pillə və səviyyələri üzrə aktual problemlərin nəzərə alınması diqqət mərkəzində saxlanılmışdır. Bu materiallardan təhsil mütəxəssisləri, pedaqoqlar, psixoloqlar, tədqiqatçılar, müəllim və valideynlər istifadə edə bilər.



**“Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar” mövzusunda Beynəlxalq konfransın materialları. Naxçıvan şəhəri, 5-6 iyun 2015-ci il. Bakı, 2015, 275 səh.**

Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutu ilə birlikdə keçirdiyi “Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar” mövzusunda Beynəlxalq konfransın materialları məcmuəsinə 171 məruzə daxil edilmişdir. Bütün məruzələrdə Azərbaycanın təhsil həyatında aparılan quruculuq işlərinə diqqət yetirilmiş, onun başlıca prioritetlərinə istinad olunmuşdur. Aparılmış ümumiləşdirmələr, innovasiya xarakterli müddəalar, mülahizə və fikirlər müasir yanaşmalar şəklində təqdim olunmuşdur.

Konfrans üçün hazırlanmış məruzələr “Şəxsiyyətyönümlü təhsil”, “Təhsilin idarə olunması”, “Təhsildə innovativ təlim metodları və texnologiyalarının tətbiqi”, “Tərbiyə texnologiyalarından istifadə”, “Psixologiya, korreksiya pedaqogikası, inklüziv təhsil”, “Rəqabətqabiliyyətli pedaqoji kadr hazırlığının aktual problemləri”, “Məktəb və pedaqoji fikir tarixi” bölmələri üzrə qruplaşdırılmış və məcmuəyə daxil edilmişdir.

Konfransın materiallarından təhsil mütəxəssisləri, pedaqoqlar, psixoloqlar, müəllimlər, tələbələr və marağı olan hər kəs istifadə edə bilər.



**“Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu. Elmi əsərlər”. Bakı, 2015, (№ 1,2,3,4).**

*Baş redaktor: Qulu Novruzov.*

2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun Elmi əsərlərinin 1-4-cü nömrələri çap olunmuşdur. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil olmuş bu Elmi əsərlərin nömrələrində institutda və eləcə də institutdan kənarda əlaqələndirmə planına uyğun olaraq aparılmış tədqiqatların nəticələri dərc edilmişdir. Orada təhsil islahatından irəli gələn ən müasir problemlərin, o cümlədən ümumi pedaqoji problemlərin, psixologiya və korreksiya pedaqogikasının, tərbiyə məsələlərinin, yeni pedaqoji texnologiyaların, pedaqoji kadr hazırlığının, fənlərin tədrisi metodikasının, təhsilin idarə olunmasının, xaricdə təhsilin, məktəb və pedaqoji fikir tarixinin əhatə olunması diqqət mərkəzində saxlanılmışdır.

İnstitutun Elmi əsərlərindəki məqalələr məzmun və struktur cəhətdən pedaqoji araşdırmaların tələblərinə uyğun hazırlanmış və müvafiq standartlara uyğun çap olunmuşdur.

Elmi əsərlərdən təhsil mütəxəssisləri, tədqiqatçılar, müəllimlər, tələbələr, eləcə də maraqlanan hər kəs istifadə edə bilər.